# Müəllif hüquqlarının kollektiv idarəetmə təşkilatları qarşısında yeni çağırışlar və həlli yolları



*29-30 oktyabr tarixlərində Bakıda Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə* ***"Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsi: əsas prinsiplər və beynəlxalq təcrübə"*** *mövzusunda beynəlxalq regional seminar keçiriləcək.*

*Beynəlxalq tədbirdə müzakirə olunacaq mövzular və ümumilikdə ölkəmizdə əqli mülkiyyət sahəsində görülən işlər ilə əlaqədar* ***Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İMANOVLA*** *müsahibəni oxucularımıza təqdim edirik.*

**– Kamran müəllim, son dövrlər ölkəmizdə aparılan islahatların yeni mərhələsi əqli mülkiyyət sahəsindən də kənar qalmamışdır. Görülən işlər barədə fikirlərinizi bilmək maraqlı olardı.**

– Müstəqil inkişaf yollarını daim arayan və buna nail olan Azərbaycan bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlamış və müsbət inkişaf üçün bütün pozitiv imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçir. İctimai tələblərə adekvat islahatlar cəmiyyətin həyatının bütün sahələrini əhatə edir. Əqli mülkiyyət sahəsi həyata keçirilən islahatların innovasiyalı əsasları ilə dəqiq rezonans yaradaraq, bunların nəticəsində əhəmiyyətli, institusional və funksional dəyişikliklərlə müşahidə olunur.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli Sərəncamı ilə Əqli Mülkiyyət Agentliyi yaradılıb, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz - Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verilib.

Yeni yaradılan Agentliyin əsas məqsədi dövlət başçısının yeni iqtisadi islahatlarına qulluq etmək və onlara dəstək verməkdir, investisiyaların cəlb olunması və innovasiyaların yaradılmasına yardım etməkdir.

Biz aydın şəkildə başa düşürük ki, investisiyaların cəlb olunmasına və innovasiyaların qorunmasına imkan verən alət olan əqli mülkiyyət sistemini inkişaf etdirmədən innovasiyalı inkişafa nail olmaq mümkün deyildir. Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir.

İxtiraçılıq və patent fəallığının artırılması üzrə tədbirləri davam etməliyik, "vahid pəncərə" prinsipini, patent fəaliyyətinin sürətləndirilməsi və şəffaflığını təmin etmək məqsədi ilə yeni rəqəmsal xidmətlərin və informasiya sistemlərinin, həmçinin informasiya texnologiyalarının (blokçeyn və s.) verdiyi imkanlar hesabına ƏM hüquqlarının qorunmasının yeni sistemlərinin yaradılması və tətbiq edilməsi üzərində fəal şəkildə işləyib, tamamlayırıq.

Elmi müəssisələrdə ƏM siyasəti - 3.0 (təhsil + araşdırmalar + kommersiyalaşdırma) universitetlərin yaradılması, kiçik və orta biznes subyektlərində innovasiyaların stimullaşdırılması, əqli mülkiyyət - təlim mərkəzləri, patent sifarişçilərinin ilkin axtarış və ekspertizanın öyrədilməsi, startaplar və spinautlar üçün vergi preferensiyaları, milli brendlərin təbliği və əlbəttə, "one-stop-shops" prinsipi üzrə rəqəmsal müəllif hüququnun idarə edilməsi, kitabxananın rəqəmsallaşdırılması məsələlərini daim diqqət mərkəzində saxlamalıyıq.

Mühüm işlər sırasında şəffaflığı təmin etmək, patent, əmtəə nişanlarının sifarişçiləri və ekspertiza və digər xidmət aparanlarla kontaktsız münasibət qurmaq məqsədilə ASAN tipli "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" "PƏNAH" rəqəmli informasiya sisteminin yaradılması işləri yekunlaşmaq üzrədir və artıq test rejimində yoxlanılır.

**– Ölkəmizdəki bu islahatlar beynəlxalq qurumlar tərəfindən də təsdiqlənir.**

– Bəli, islahatçı ölkələrin avanqardına daxil olan Azərbaycan "Doing Business-2019" reytinqinə görə 190 ölkə arasında 25-ci yerdədir, o cümlədən "biznesin başlaması" - 9-cu yer, "kiçik investorların maraqlarının qorunması" - 2-ci yer, "vergilərin ödənilməsi" - 28-ci yer. Yeni hazırlanan "Doing Business - 2020" hesabatında Azərbaycan islahatçı 20 ölkə sırasına daxil edilib.

Son Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycan "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 141 ölkə arasında 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən, yəni islahatların yeni mərhələsindən başlayaraq, bu göstərici ardıcıl olaraq yaxşılaşır. Rəqabətqabiliyyətlilik İndeksində 2015-ci ildə 92-ci yerdən 2016-2017-ci illərdə - 71-ci, 2017-2018 - 37-ci, sonra 36-cı və nəhayət 2019-cu ildə 30-cu yerdə qərarlaşıb. Buna paralel olaraq, patent sifarişlərində də artım görünür.

Bu ilin oktyabr ayında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş Assambleyasında Azərbaycan təşkilatın Büdcə və Proqram Komitəsinə seçilib, rotasiya əsasları ilə Koordinasiya Komitəsində təmsil olunacaq və Azərbaycanın nümayəndəsi ilk dəfə olaraq, müəllif hüququ üzrə 1886-cı ildə qəbul edilən və 170 ölkəni birləşdirən məşhur Bern Konvensiyası Assambleyasının sədri vəzifəsinə layiq görülüb. Söylədiklərim faktlar ölkəmizin əqli mülkiyyət sahəsində və xüsusən də müəllif-hüquq istiqamətində nüfuzunun bariz nümunələridir.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, bir tərəfdən dövlət başçımızın iqtisadi strategiyasının doğru yolda olmasıdır, digər tərəfdən isə institusional islahatların həyata keçirilməsinin nəticəsidir.

Bu dəyişikliklərin başında innovativ, yeniliklərlə və islahatlarla zəngin və insanlara xidmət edən dövlət siyasəti durur və bunlar ulu öndər Heydər Əliyevin varislik yoluna əsaslanır.

**– Bu günlərdə Agentlik Bakıda Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə birlikdə beynəlxalq seminar keçirəcək. Bu tədbirin təşkil olunması hansı zərurətdən yaranıb?**

– Qeyd etdiyimiz müvəffəqiyyətlərlə yanaşı, müəllif-hüquq sahəsində kollektiv idarəetmə məsələləri bizi narahat etməyə bilməz. Çünki müəllif-hüquq sisteminin bu istiqaməti yaradıcıları stimullaşdırmalıdır, onların əsərlərinin istifadəsi ilə bağlı qonorarların yığımını təşkil etməlidir, hətta müəllifləri layiqincə həvəsləndirməklə müəllif-hüquq sisteminin nüfuzunu artırmalıdır. Odur ki, Əqli Mülkiyyət Agentliyi ÜƏMT qarşısında təşəbbüslə çıxış edərək, bu beynəlxalq regional seminarın keçirilməsinə nail oldu.

Seminarda ölkəmizin dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, elm və təhsil müəssisələrinin nümayəndələri, ictimai təşkilatların təmsilçiləri, ÜƏMT və bir sıra beynəlxalq kollektiv idarəetmə təşkilatlarının - CISAC, IFPI, SCAPR, IFRRO və AGICOA nümayəndələri, o cümlədən Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Tacikistan, Türkiyə və Türkmənistanın müəlliflik hüququ sahəsində fəaliyyət göstərən qurumların, kollektiv idarəetmə təşkilatlarının əməkdaşları və digər ekspertlərin iştirakı gözlənilir.

Son zamanlar hüquqların kollektiv idarə edilməsi mövzusu aktuallaşmanı aşaraq, həddindən artıq "qızışdırılıb". Bir tərəfdən dövlət orqanları tərəfindən atılan radikal təşəbbüs və tədbirlər, bu sahədə səs-küylü münaqişələr, digər tərəfdən kollektiv idarəetmə təşkilatlarının prioritet və "ilkinliyini" qəti şəkildə müdafiə etməsi və s. diskussiyaların şişirdilməsinə gətirib çıxararaq, bu sahənin sistemli böhran vəziyyətə düşməsi haqqında fikir yaradır. Böhran vəziyyətinin yaranması ilə müəyyən mənada razılaşmaq mümkündür. Lakin böhranın əmələ gəlməsi ilə bağlı qloballaşma və texnoloji sıçrayışa aid yeni reallıqları nəzərə almaqla, səbəblərin bugünkü dəlil və emosiyalar çərçivəsində deyil, kollektiv idarəetmənin ilkin yaranma köklərində axtarmaq daha məqsədəmüvafiqdir.

1777-ci ildən, Bomarşe tərəfindən dramatik əsərlərin qorunmasından başlayaraq, sonrakı mərhələdə 1838-ci ildə ədəbi və digər əsərlərin idarə edilməsinə aid Balzak, Düma, Hüqo və s. müəlliflərin yaratdığı cəmiyyətlər və 1847-ci ildə Fransada SACEM, musiqi əsərlərinin kollektiv idarəetmə təşkilatının formalaşmasına qədər bu sahə müstəsna olaraq, hüquq sahiblərinin, konkret olaraq, müəlliflərin maraqlarını güdürdü və mənafeyini qoruyurdu, onlar üçün müəllif qonorarının yığımını həyata keçirirdi.

Zaman keçdikcə, əsərlərin istifadə üsulları artdıqca və yayma kanalları inkişaf etdirildikcə kollektiv idarəetmənin məqsədinin hüquq sahibləri - müəlliflərin və istifadəçilərin mənafeyinə xidmət etməsinin olduğu bəyan edilmişdi və de-fakto bu strukturlar təşkilati və texniki cəhətdən evolyusiya etməsinə baxmayaraq, konseptual cəhətdən dəyişmədən bu günə qədər qalır.

Odur ki, kollektiv idarəetmədən söz açıldıqda müəlliflərin (hüquq sahiblərinin) əsərlərindən istifadə etməyə nəzarətinin, istifadəçilərin isə istifadəyə icazə (lisenziya) almağın mümkünsüzlüyü və ya mürəkkəbliyi əsas götürülür. Bununla da kollektiv idarəetmə sisteminin mahiyyəti və məntiqi hüquq sahiblərinin və istifadəçilərin maraqlarının ortaq məxrəcə gətirilməsi prinsipini irəli sürür.

Bu həqiqətən belədir və kollektiv idarəetmə təşkilatlarının müəllif hüquqlarının qorunmasına verdiyi vacib töhfədir. Lakin qarşımıza "hüquqların hansı idarəetmə sistemi - individual, fərdi, yoxsa kollektiv idarəetmə sistemi daha əlverişlidir?" sualı dayandıqda, cavab birmənalıdır - mümkün olduğu halda fərdi idarəetmə daha əlverişlidir, daha üstündür, çünki müəllifin (hüquq sahiblərinin) iradəsinə və qərar verməsinə əsaslanır.

**– Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsi ilə bağlı ölkə qanunvericiliyində hansı normalar nəzərdə tutulub?**

– Qanunvericilikdə qeyd olunduğu kimi, müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarının təmin edilməsini fərdi qaydada həyata keçirmək praktik olaraq mümkün olmadıqda müvafiq qanunvericiliyə uyğun olaraq göstərilən şəxslərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradıla bilər. Hüquqların fərdi idarə olunması kollektiv idarəetmədən onunla fərqlənir ki, hüquq sahiblərinin müstəsna hüquqları məhdudlaşdırılır. Bu vəziyyətdə hüquq sahibləri artıq onların adından hüquqlardan istifadəyə icazə verilir və bu hüquqlar kollektiv idarəetmə təşkilatları tərəfindən həyata keçirilir.

Müəlliflərin (hüquq sahiblərinin) müstəsna hüquqlarının məhdudlaşdırılması sırasına:

- əsərlərdən sərbəst istifadə halları ("free use"),
- qeyri-könüllü ("non voluntary") lisenziyalar (o cümlədən məcburi lisenziyalar ("compulsory license") və qanuni lisenziyalar ("statutory license")) daxildir.

Hüquqların kollektiv idarəetməsi də (kollektiv lisenziyalaşma) müstəsna hüquqların məhdudlaşması deməkdir, lakin məhdudiyyətin ən yumşaq forması kimi çıxış edərək, qeyri-könüllü lisenziyaların alternativi kimi təsbit edilir. Kollektiv idarəetmənin hüquqi əsaslarını Bern Konvensiyasının 11 bis (2) və 13 (1) maddələri təşkil edir və kollektiv idarəetmənin tətbiqi isə milli qanunvericilikdə "xüsusi şərtlər" vasitəsilə tənzimlənərək, mütləq şəkildə hüquq sahiblərinə mükafatın çatdırılmasına bağlanır.

Azərbaycanda hüquqların kollektiv idarə edilməsi qanuni və normativ-hüquqi aktlara əsaslanır, könüllü xarakter daşıyır və kollektiv idarəetmə təşkilatları qaydalara uyğun olaraq, məhdud yayılma lisenziyalaşması tətbiq etməlidirlər. Yəni müəyyən bir sahədə yeganə təşkilat kollektiv idarəetməni təşkil edərək, yalnız ona hüquqların təmsilçiliyini həvalə edən hüquq sahiblərinin hüquqlarını idarə edir. İstisnalar isə müəllif-hüquq qanunvericiliyinin 17.3 və 37-ci maddələrində göstərilən private-copy (şəxsi məqsədlər üçün surətçıxarma) və dərc edilmiş fonoqramlarla bağlı müvafiq olaraq, qanuni lisenziyalar əsasında həyata keçirilir.

Bir sıra ölkələrdə kollektiv idarəetmə cəmiyyətlərinin alternativi isə "agent növlü" kollektiv idarəetmə təşkilatlarıdır. Bununla yanaşı, müəyyən ölkələrdə "genişləndirilmiş kollektiv idarəetmə" mövcuddur. Əgər "genişləndirilmiş kollektiv idarəetmə" əsərlərdən istifadənin müəyyən sahəsində fəaliyyətin inhisar (monopol) xarakterini və məhdud sayda cəmiyyətləri nəzərdə tutursa, "agent növü" eyni sahədə çoxlu sayda müəllif-hüquq cəmiyyətlərinə əsaslanır ki, bunların da hər biri məhdud dairədə hüquq sahiblərinin, hətta bir neçə hüquq sahibinin də maraqlarını təmsil edərək fəaliyyət göstərə bilər.

Azərbaycan qanunvericiliyinin "genişləndirilmiş kollektiv idarəetmə" ilə bağlı müəyyən etdiyi məhdudiyyət onunla bağlıdır ki, belə ictimai birlik ancaq ona bu səlahiyyəti vermiş hüquq sahiblərinin maraqlarını təmsil edə bilər. Bununla yanaşı, Qanunun mövcud normasına (43-cü maddə) uyğun olaraq, kollektiv idarəetmə təşkilatına belə hüququ verməmiş hüquq sahibinin ona çatası qonorarı tələb etmək (şərikli əsərlər üçün, yaxud bütöv proqrama görə hesablanmış qonorar), həmçinin öz əsərlərinin həmin təşkilatın repertuarından çıxarılmasını tələb etmək ixtiyarı vardır.

Qanunvericilikdə nəzərdə tutulan bu normaya və beynəlxalq təşkilatların qəbul etdiyi təsnifata uyğun olaraq, "məhdud genişləndirilmiş kollektiv idarəetmə" özözlüyündə onlara münasibətdə kollektiv idarəetmənin həyata keçirildiyi şəxslərin sayının məhdudlaşdırılmasıdır.

Azərbaycan qanunvericiliyi kollektiv idarəetmə təşkilatlarının yaranmasını ictimai birliklər kimi müəyyən edir, qeydiyyatını Ədliyyə Nazirliyinə həvalə və bununla yanaşı, Əqli Mülkiyyət Agentliyində akkreditasiyanın keçməsini zəruri təsbit edir. Akkreditasiya qaydalarına aid hökumətin xüsusi qərarı qüvvədədir.

**– Siz əqli mülkiyyət sahəsində beynəlxalq ekspert kimi də tanınırsız, müəlliflik hüququ sahəsində mühüm beynəlxalq saziş olan Bern Konvensiyasının Assambleyasının sədrisiniz. Hazırda dünya üzrə qonorar yığımında hansı tendensiyalar var?**

– Müəllif və Bəstəkarlar Cəmiyyətlərinin Beynəlxalq Konfederasiyasının (CISAC) 2019-cu ilin "Annual Report"a diqqət yetirsək, görürük ki, bu beynəlxalq ictimai struktur 122 ölkədən 439 üzv-cəmiyyətləri birləşdirərək, 9,6 mlrd. avro qonorar yığımını təşkil edib və bu rəqəm 2018-ci ildə 2017-ci ilin nəticələrini 6,2 faiz üstələyir. O cümlədən yığılan qonorardan 1,27 mlrd. avro rəqəmli kolleksiyaların payına düşür, bu da ümumi yığımın 13,2 faizini təşkil edir. Hesabatdan çıxarılan digər vacib nəticə Avropa regionunun, yəni Mərkəzi və Şərqi Avropa, həmçinin Mərkəzi Asiya ölkələrinin (CEE), o cümlədən Azərbaycanın da daxil olduğu bölgənin qonorar yığımının miqdarı 5,401 mlrd. avro təşkil edir və digər regionlarla müqayisədə ən böyük paydır.

Xatırladıram ki, 2017-ci il dekabr ayında Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin ÜƏMT ilə birgə keçirdiyi "Müəllif hüququna hörmətin aşılanması: rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə" adlı konfransda çıxış edərək, CISAC-ın 2018-ci ildəki hesabatından aşağıdakı nəticələri xüsusi qeyd etmişdim:

"**Birincisi,** CISAC qeyd edirdi ki, rəqəmsal istifadə qonorarların ümumi yığımına təsir göstərir, ancaq burada problem ondadır ki, rəqəmsal canlanma nəticəsində royaltinin qlobal yığımının 10 faizi təşkil edən müəllif gəlirləri lazım olduğu qədər artmır, çünki gəlirlərin əsas payı yaradıcılara yox, rəqəmsal xidmət göstərənlərə gedir (digitalın ümumi artımı 51,4 faiz təşkil edir). Və burada fundamental ədalətsizlik və bazarın qəbul olunmaz disbalansını düzəldə biləcək qanunverici islahatlara zərurət yaranır.

**İkincisi,** hesabatda təsdiq olunub ki, ümumiyyətlə "rəqəmsal bazarda gəlirlərin prinsipcə ədalətsiz və səmərəsiz paylaşımı mövcuddur. Yəni kontenti əlçatımlı edənlər yaradıcıdan, investordan və naşirdən daha çox gəlir qazanır və bu təşkilatlar yaradıcılara nə isə verməkdən imtina edir. Və bunun nəticəsi yaradıcı sektor üçün dağıdıcı olur, çünki yaradıcı kontentin istifadəsində böyük artım müşahidə olunur, amma dəyərin qaytarılması çox cüzidir".

Əlavə olaraq qeyd olunurdu ki, "tələb üzrə musiqinin ən böyük mənbələri olan istifadəçi kontentlərin servisi dəyərin ötürülməsinin əsasında durur. Bu xidmətləri yaradanlara qaytarılan gəlirlər qeyri-proporsional olaraq azdır".

Deməli, CISAC ötənilki hesabatında artan rəqəmsal bazarda gəlirlərin ədalətsiz paylaşmasının olduğunu ön plana çəkərək, qanunverici islahatların zərurətini təsbit edir və bununla yanaşı, musiqi sektorunda gəlirlərin qaytarılması da qeyri-proporsional olduğundan cüzi miqdarla ifadə edildiyini nəzərə çatdırır.

CISAC-ın son builki hesabatına qayıdaraq, qeyd edək ki, bizi maraqlandıran Avropa regionunda 47 ölkənin 108 kollektiv idarəetmə cəmiyyətləri ofisi Budapeştdə yerləşən CISAC-ın Avropa Komitəsinin başçılığı altında fəaliyyət göstərir. Hesabatda qeyd olunur ki, regional ofis region cəmiyyətlərinə dəstək göstərərək, bura daxil olan 26 Mərkəzi və Şərqi Avropa, həmçinin Mərkəzi Asiya (CEE) ölkələrindən ibarət 48 cəmiyyəti xüsusi diqqət altında saxlayır.

Qeyd etdiyim kimi, Avropada qonorar yığımı 5,4 mlrd. avro təşkil edərək, 56,4 faiz dünya qonorar yığımını təsbit edir və bu yığım 2017-ci ilin yığımını 5,7 faiz üstələyir.

Hesabatda qeyd olunur ki, Azərbaycanın da daxil olduğu təşkilatlarda CEE ölkələrində bu yığım 8 faiz artaraq, 424,3 mln. avro təşkil edir. Önəmlisi də odur ki, ümumi yığımda musiqi əsərləri ilə bağlı qonorar yığımı 77 faiz, audiovizual əsərlər - 13,3 faiz, dramatik əsərlər - 7,1 faiz, ədəbi əsərlər - 1,4 faiz və təsviri incəsənət əsərləri - 0,9 faiz təşkil edir.

Dediklərim aşağıdakı nəticələrə gətirir:

CEE ölkələri üzrə qonorar yığımı əhəmiyyətli dərəcədə artımla (8 faiz) müşahidə olunur, özü də musiqili əsərlərə görə qonorar yığımı dramatik əsərlərə aid yığımı təxminən 10 dəfə üstələyir və təqribən 6 dəfə audiovizual əsərlərə görə yığılan qonorardan çoxdur.

**– Bəs ölkəmizdə qonorar yığımı sahədə vəziyyət necədir?**

– Azərbaycanda qonorar yığımı ilə ictimai birliklər məşğuldur, o cümlədən 2 kollektiv idarəetmə təşkilatı fəaliyyətdədir: musiqili əsərlər üzrə "Azərbaycan müəllifləri" İctimai Birliyi CISAC-ın üzvüdür və audiovizual əsərlər üzrə "Kinorejissorlar gildiyası" CISAC-ın üzvlüyünə namizəddir. Hər ikisinə yarandıqları andan ƏMA (o zaman MHA) hüquqi, təşkilati və intellektual yardım göstərərək, fəaliyyət dövrlərində yaranan problemlərin həllində daim dəstəkləmişdi. Dediklərimin əsası cənab Prezident İlham Əliyevin təsdiq etdiyi ƏMA-nın Nizamnaməsində öz əksini tapır və burada göstərildiyi kimi, Agentlik əqli mülkiyyət və o cümlədən müəllif-hüquq sahəsində dövlət siyasətini həyata keçirən, sahənin tənzimlənməsinə, nəzarət və koordinasiyasına cavabdeh orqandır.

"Azərbaycan Professional Kinorejissorlar Gildiyası" 17 may 1999-cu ildə 32 kinorejissorun təşəbbüsü ilə təsis edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatından (18.06.1999-cu il, 1156 qeydiyyat nömrəsi ilə) keçirilmiş, elə həmin ildə də Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində uçota alınmışdır.

Gildiya müəllif-hüquq qanunvericiliyinin tələblərinə uyğun olaraq, son akkreditasiya müddətinin bitməsi ilə əlaqədar 2018-ci ildə Əqli Mülkiyyət Agentliyində 5 (beş) il müddətinə qeydiyyatdan (akkreditasiyadan) keçirilmiş və ona Şəhadətnamə verilmişdir.

2018-ci ildə Gildiya 43986 manat qonorar yığımına malik olmuşdur və hesabatlarını qanunauyğun təqdim edir.

Gildiyanın hazırda qarşısında duran problemlərdən biri audiovizual əsərlərdən və televiziyalar tərəfindən istifadəyə, həmçinin kabel televiziyası operatorları tərəfindən retranslyasiyaya görə qonorarın ödənilməməsi ilə bağlıdır və Gildiyanın iddiaları əsasında məhkəmələrdə Agentliyin nümayəndələri onun mövqeyini dəstəkləyir.

Yaxın gələcəkdə bu təşkilat Agentliyin tabeliyində olan Əqli mülkiyyət hüquqlarının təminatı Mərkəzi ilə birgə "private copy"ya aid qanuni lisenziyalaşmanın aparılmasına hazırlaşır.

O ki qaldı digər kollektiv idarəetmə təşkilatına - musiqi əsərləri ilə bağlı, burada vəziyyət fərqlidir. Qeyd etmək lazımdır ki, İctimai Birlik əvvəllər "Musiqili Əsər Müəlliflərinin Əmlak Hüquqlarının İdarəçiliyi" adı altında fəaliyyət göstərmiş və 2004-cü ildən Müəllif Hüquqları Agentliyində uçota alınmışdır.

O zaman İctimai Birliyin fəaliyyət dairəsi ancaq musiqili əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyi üzrə müəyyənləşdirilmişdi. 2008-ci ildə Birliyin Nizamnaməsinə edilmiş dəyişikliklərə əsasən, onun adı dəyişdirilərək, "Azərbaycan Müəllifləri" adlandırılmış və əsas məqsədi "müəlliflərin əmlak hüquqlarının təmin edilməsi məqsədilə bu hüquqların kollektiv əsasda idarə edilməsi" kimi göstərilmişdir.

Yeni edilmiş dəyişikliklərdən sonra İctimai Birlik Agentliyə müraciət etməli və fəaliyyət dairəsinin genişləndirilməsi ilə bağlı Agentlikdən icazə almalı idi. Lakin Birlik Agentlikdə qeydiyyatı olmadan fəaliyyətini davam etdirmişdir ki, bu da mövcud qanunvericiliyə ziddir.

İctimai Birlik Agentlik tərəfindən dəfələrlə edilən xəbərdarlıqlardan sonra 2017-ci və 2018-ci illər fəaliyyəti ilə bağlı illik hesabatları vaxtından gec təqdim etmiş və hesabatların təhlili zamanı aşkar olunmuşdur ki, orada göstərilən məlumatlar tam deyil və bununla yanaşı, bir sıra diqqətsizliklərə yol verilmişdir. O ki qaldı İctimai Birliyin qonorar yığımına, 2018-ci ildə 97118,89 manat olmuşdur.

Azərbaycanda böyük həcmli əsərlərdən istifadəyə görə qonorar yığılması və müəlliflərə çatdırılması sahəsində kollektiv idarəetmə təşkilatı olmadığından, bu funksiya Agentlik tərəfindən ictimai yük kimi həyata keçirilir və buna görə ictimai birliklərdən fərqli olaraq heç bir xidmət haqqı tutulmur. Qeyd etmək istəyirəm ki, təkcə 2018-ci ildə Agentlik tərəfindən 111662 manat qonorar yığılmışdır.

Beləliklə, qonorar yığımı Azərbaycanda dram əsərlərinə 111,5 min (45 faiz, musiqili əsərlərə 97 min (38 faiz) və audiovizual əsərlərə görə 43 min (17 faiz) təşkil edir. Bu yığımı təşkil edən strukturlar müvafiq olaraq, Əqli Mülkiyyət Agentliyi, "Azərbaycan müəllifləri" kollektiv idarəetmə təşkilatı və Kinorejissorlar gildiyasıdır.

Qeyd etdiklərimlə əlaqədar bir müqayisə aparaq.

Avropa regionunda CEE ölkələri daxil olmaqla, musiqili əsərlərə görə qonorar yığımı 77 faiz təşkil edərək, dram əsərlərinə görə yığımı (7,1 faiz) 10 dəfə, audiovizual əsərlərə görə yığımı (13,3 faiz) təxminən 6 dəfə üstələdiyi halda, Azərbaycanda vəziyyət tam əksinə, dünya trendi ilə uyğunlaşmır, hətta ona ziddir. Belə ki, dram əsərlərinə görə olan yığım digər əsərlər növünə aid olan yığımı üstələyir, o cümlədən musiqili əsərlərə görə olan yığımla münasibətdə 7 faiz. Yaranan paradoksal vəziyyət bizi düşünməyə və tədbir görməyə vadar edir. Heç də təsadüfi deyil ki, CISAC-ın son hesabatında hüquqların təmin edilməsində digər dövlətlərlə yanaşı, Azərbaycanın da kollektiv idarəetmə təşkilatlarını tənqid edir. Hesabatda göstərilir ki, "Azərbaycan müəllifləri" kollektiv idarəetmə təşkilatı CISAC-ın tam üzvü olaraq musiqili əsərlərlə yanaşı, dram əsərlərinə aid fəaliyyət göstərir. Tam məsuliyyətlə qeyd edirəm, bu kollektiv idarəetmə təşkilatı həmin fəaliyyət üçün Agentlikdən səlahiyyət almayıb və yuxarıda qeyd etdiyim kimi, dram əsərləri ilə bağlı qonorar yığımını hökumətin göstərişi ilə ictimai yük kimi Əqli Mülkiyyət Agentliyi aparır. Əmələ gələn yanlışlıq səbəbindən Azərbaycanda qonorarın ən çox yığımı CISAC-ın hesabatına düşmür və nəticədə təhrif olunmuş mənzərə yaradır.

**– Kamran müəllim, hazırda bəşəriyyət rəqəmsal era dövrünü yaşayır. Bu baxımdan kollektiv idarəetmənin gələcəyini necə görürsünüz?**

– ÜƏMT-nın Baş direktoru, d-r F.Qarrinin sözlərinə istinad edərək, "Copyright sistemini stress vəziyyətindən çıxartmaq üçün, xüsusən rəqəmsal erada, yeni baxışlar, modellərin axtarışı labüddür". Bu yanaşma hansı prinsiplərə əsaslanmalıdır?

Bir tərəfdən, yanaşmanın uğuru online istifadə sxemlərinin tənzimlənməsi istifadəçilərin gözləntiləri ilə uyğunlaşmalı, leqal istifadə və lisenziyalaşma qeyri-leqal istifadə qədər asan olmalıdır. Digər tərəfdən, müəllif hüququnun məqsədi əsərlərin yaradılması və yayılması ilə bağlı bütün texnologiyalarla əməkdaşlıq etmək, bu texnologiyalar vasitəsilə yaranan mədəni mübadilədən faydalanmaqdır, yeni biznes-modellər yaradaraq köhnə texnologiyalar əsasında yaradılmış biznes-modellərin qorunmasına yönəldilməmək. Və nəhayət, müəllif hüququnun məqsədi biznesin korporativ maraqlarının həvəslənməsində deyil, mədəni dinamizmə yardım etməkdədir və müəllif hüququna dair siyasət sahəsində ən azı hüququn, infrastrukturun, mədəni dəyişikliklərin və ən yaxşı biznes-modellərinin birləşməsi nəzərdə tutmalıdır.

**– Bəs Azərbaycanın müəllif-hüquq sahəsinin gələcəyi ilə bağlı hansı prinsiplər əsas götürülür və hansı işlər yerinə yetirilir?**

– **Birincisi,** yaradıcılığın ifadə edilməsinin yeni texnologiyalara qarşı nə təsir və ya inkar etməsi, nə də köhnəlmiş texnologiyalar əsasında qurulmuş biznes-modellərin qorunub saxlanmasıdır. Əksinə, əsərlərin yaradılması və yayılması ilə bağlı olan bütün yeni texnologiyalarla əməkdaşlıq etmək və bu texnologiyalar vasitəsilə yaranan mədəni mübadilədən faydalanmaq.

**İkincisi,** təkliflər ən azı hüququn (qəbul olunan qanunlar), yaradılan infrastrukturun, mədəni dəyişikliklərin və ən yaxşı biznes-modellərin birləşməsinə əsaslanmalıdır. Bunları açıqlayım. Bildiyiniz kimi, hüquq yüzilliklər də olmasa, onilliklər boyu müəllif hüququ sahəsində siyasətin formalaşdırılmasında əsas vasitə hesab edilir. Lakin rəqəmsal mühitdə o kifayət qədər sərt, hətta məhdud bir vasitəyə çevrilib. Çünki müəllif hüququnun ərazi prinsipi fiziki aləmdəki təsirindən fərqli olaraq, rəqəmsal mühitin, hərəkət həcminə və beynəlxalq çoxyurisdiksiyalı xüsusiyyətinə görə zəifləmiş olur. Odur ki, hüquq öz mövqeyini qorumaq üçün İnternet platformalarına və onların yaratdığı İnternet mədəniyyətinə əl uzatmalıdır. İnfrastruktura gəldikdə, o hüquqdan az olmayan əhəmiyyətə malikdir. Bizim tərəfimizdən hazırlanmış və həyata keçirilən infrastruktur layihəsinin birincisi one-stop-shops formatda onlayn lisenziyalaşmanı və monitorinqi (müəllif hüququ ilə qorunan hər hansı bir kontent üçün bir pəncərə prinsipini) nəzərdə tutur. Biz kollektiv idarəetmə cəmiyyətlərimizlə qarşılıqlı əlaqələr quracağıq, lakin başqa qaydalarla: kontentin milli bazasını Agentlik idarə edəcək və bu milli məlumat bazasında kollektiv cəmiyyətlərin repertuarından, həmçinin folklordan və digər obyektlərdən istifadə olunacaq. Bütövlükdə, İnternetdə qorunan kontentin ədəbiyyat, musiqi, audiovizual əsərlərdən, məlumat bazalarından, fotoşəklindən, incəsənət əsərlərindən, folklor nümunələrindən və fonoqramlardan ibarət olacağı nəzərdə tutulur. Kontent axtarış məqsədilə identifikatorlarla və təhlükəsizliyi, qanuniliyini müəyyən edən su nişanları ilə təchiz olunur. Bununla yanaşı, biz başa düşürük ki, İnternetin çoxyurisdiksiyalı və sərhədsiz olması qlobal infrastrukturun, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) səviyyəsində məlumat bazasının yaradılmasını tələb edir. Bu iş ÜƏMT-də artıq başlanıb və kontentin milli Reyestrinin və onu idarəetmə sisteminin, milli bazaları birləşdirən, ÜƏMT-nin qlobal bazası ilə uyğunlaşdırılmasına imkan verəcək. Üstəlik, ÜƏMT kollektiv idarəetmə təşkilatları üçün yeni keyfiyyət standartının da hazırlayıb.

Rəqəmsal dövr çox şeyi dəyişdirib. Onun yaratdığı kontent bu gün, eyni zamanda, həm əsas məhsul, həm də rəqəmsal iqtisadiyyatın mənbəyi hesab olunur, eynilə rəqəmsal fayl kimi - bu, həm texnologiyadır, həm də istehsal yeri. Əqli mülkiyyətin dünyada bugünkü fəaliyyət kontekstinin prinsipial fərqləndiyi eyni dərəcədə əqli mülkiyyətə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir. Əks halda çox qəti tənqidi fikirlərlə rastlaşmalıyıq. Məsələn, IPChain Assosiasiyasının prezidenti, Avrasiya hüquq sahibləri Konfederasiyasının başçısı A.Kriçevskiyin qeyd etdiyi kimi, "... Kollektiv idarəetmə təşkilatlarını unudun. Hazırda bu servis xidmətlərinin bazarda heç bir əhəmiyyəti yoxdur... Bu gün ayrı oyunçular və ayrı dünyadır".

Biz heç bir vəchlə IPChain sisteminin imkanlarını inkar etmirik. Hətta 2017-ci ildə ÜƏMT ilə birgə keçirdiyimiz konfransda mən Azərbaycanda MHAChain istiqamətində apardığımız işlər haqqında geniş məruzə etmişəm.

**– Müəllif Hüquqları Agentliyinin layihəsi olan MHAChain haqqında açıqlama verməyinizi xahiş edirəm.**

– Xatırladım ki, MHAChain Azərbaycan layihəsi - P2P şəbəkə bazasında blokçeyn-texnologiyasına əsaslanan platformadır. Azərbaycanda istifadə etmək üçün nəzərdə tutulan bu sistem iki fəaliyyət rejiminə malikdir, onun iştirakçıları sırasına isə istifadəçilər və hüquq sahibləri (müəlliflər) daxildir.

Sistemin qarşısında blokçeyn-texnologiyasının istifadəsi üzrə ən azı 4 vəzifə durur: əqli mülkiyyət obyektlərinin, fayllarının bazası qismində iştirak etmək, mükafatların daha tez ödənişini təklif etmək, ödəniş prosesinin şəffaflığını təmin və hüquq sahiblərinə yeni maliyyə mənbəyini təqdim etmək.

Daha ətraflı desək, blokçeyn vahid və hər kəs üçün əlçatımlı musiqi əsərləri bazasının yaranmasına imkan verməlidir. Hüquq sahibləri ilə əlaqə məlumatını və əqli mülkiyyət obyektlərinin istifadəsi şərtlərini ümumi reyestrdən çox rahat əldə etmək mümkün olacaq və bu da marağı olan şəxslərə lisenziya almaq üçün məlumatların toplanma prosesini daha da sadələşdirəcək. Təklifimiz mərkəzləşdirilmiş idarəetmə ilə mərkəzdən idarə olunmayan reyestr rejiminə əsaslanır.

Azərbaycanda müəllif hüquqları obyektlərinin dövlət qeydiyyatını nəzərə alsaq, göstərilən funksiyalar həm də qeydiyyatı həyata keçirən Vahid depozitariy rolunu icra edəcək Agentliyin səlahiyyətində qalır.

Ənənəvi qeydiyyat prosedurunun indi həyata keçirilən onlayn-qeydiyyatdan fərqi ondan ibarət olacaq ki, qeydiyyat blokçeyn şəbəkəsi vasitəsilə mümkün olacaq, depozitə qoyulma proseduru isə dünyanın istənilən nöqtəsində üçüncü tərəfin (Agentliyin) iştirakı olmadan qeydiyyatdan keçmiş obyekt haqqında məlumatı təsdiqləməyə imkan verəcək. Digər tərəfdən Agentlik qeydiyyatdan keçirilmiş obyektləri blokçeyn şəbəkəsinə daxil edə bilər.

**– Dünyada, həmçinin Azərbaycanda fəaliyyətdə olan kollektiv idarəetmə təşkilatları öz fəaliyyətlərində daha çox hansı prinsiplərə əsaslanmalıdır?**

– Copyright-sisteminin bütövlükdə, həmçinin hüquqların kollektiv idarə edilməsinin hansı istiqamətdə inkişafından asılı olmayaraq, bu gün fəaliyyətdə olan təşkilatların dayanıqlı və sağlam olması və nüfuzunun itirilməməsi məqsədilə mütəxəssislərin rəyinə əsasən, iki məqama xüsusi diqqət yetirilməsi tələb olunur:

**Birincisi** - kollektiv idarəetmə təşkilatlarında transparentliyin açıqlılığının təmin edilməsidir;

**İkincisi** - bu təşkilatların fəaliyyətinə dövlət nəzarətinin düzgün qurulmasıdır.

Bu iki vacib amil müxtəlif növ peşəkar sənədlərdə öz əksini tapmışdır.

ÜƏMT-nin "KİT üçün qabaqcıl təcrübəsi" adlı vəsaitində (yanvar, 2018-ci il) KİT-lərin hesabatlarına ciddi tələblər irəli sürülür. Belə ki, (sitat gətirirəm) "KİT-nin (Kollektiv idarəetmə təşkilatının) illik hesabatı - özündə geniş ictimaiyyətə təşkilatın əməliyyat və fəaliyyətinin nəticələri, üzvləri, digər hüquq sahibləri haqqında məlumatları ehtiva edən mühüm sənəddir. Ümumiyyətlə, digər cəmiyyət və birliklər kimi, KİT-lərin də qanunla müəyyən edilmiş qaydada illik hesabatların tərtib və dərc etməli olduqları üçün, KİT-lərə özlərinin illik hesabatlarında maliyyə əməliyyatları və fəaliyyətlərinin nəticələrinin tam və şəffaf mənzərəsini təqdim etmələri tövsiyə olunur. Onlar həm də ictimaiyyətə təqdim etmək üçün hesabatları istifadə olunması rahat olan formatda dərc etməlidirlər, misal üçün, özlərinin veb-saytlarında". Həmin sənəddə ciddi tələblər - KİT-lərin fəaliyyətinin dövlət nəzarətinə aid müddəaları mövcuddur. Digər - ÜƏMT-nin "Keçid iqtisadiyyatı olan ölkələrdə müəllif hüququnun tipik xüsusiyyətləri" sənədində KİT-lərin fəaliyyətinin tənzimlənməsi ilə bağlı aşağıdakılar tövsiyə olunur:

"Belə tənzimləmə çərçivəsində, çox arzuolunan şərtdir ki, kollektiv idarəetmə təşkilatlarının yaradılması məsələsinə səlahiyyəti hökumət orqanı tərəfindən əvvəlcədən hərtərəfli baxılması və akkreditasiyadan və qeydiyyatdan keçmə şərti ilə həyata keçirilsin. Qanunvericilik müddəalarında belə təşkilatların fəaliyyətlərinə mütəmadi nəzarətin, - fəaliyyətin dayandırılması və ya akkreditasiyanın ləğvi - kimi mümkün sanksiyalarda göstərilən normalar əks olunmalıdır - o hallarda ki, təşkilat qanunla müəyyən edilmiş şərtlərə uyğun fəaliyyət göstərmir".

Avropanın EC 2014/26 EU Direktivində göstərilir:

"Üzv dövlətlər bu məqsədlə yaradılan səlahiyyətli orqanlarının öz ərazilərində yaradılan kollektiv idarəetmə təşkilatları tərəfindən bu Direktivin tələblərinin icrası üçün qəbul edilmiş milli qanunvericiliyə riayət edilməsi nəzarəti həyata keçirilməsini təmin edəcəklər".

"Üzv dövlətlər bu məqsədlə yaradılan səlahiyyətli orqanlara müvafiq sanksiyalar tətbiq etmək və bu Direktivi həyata keçirməsi üçün qəbul edilmiş milli qanunvericiliyin müddəalarına riayət edilmədikdə tədbirlər görmək səlahiyyətlərini verəcəkdir. Bu cür sanksiyalar və tədbirlər təsirli, mütənasib olmalıdır və gələcək pozuntuların qarşısını almalıdır".

Avrasiya İqtisadi İttifaqında kollektiv idarəetmə ilə bağlı qəbul edilmiş sənəddə açıqlıq, şəffaflıq, dövlət nəzarəti və s. məsələlərə aid xüsusi maddələr mövcuddur.

**– Bəs praktikada vəziyyət nə yerdədir?**

– Azərbaycanın KİT-nin saytlarında apardığımız monitorinq göstərir ki, audiovizual əsərləri idarə edən təşkilatın saytında yenilənən məlumat, hesabatlar yer tapıb, bir sözlə, şəffaflıq tələbləri nəzərə alınır.

Musiqili əsərləri idarə edən KİT-nin xəbərləri yenilənmir, son dəfə 2017-ci ildəki xəbər mövcuddur, yığıncaqlar haqqında məlumat yoxdur, hesabatlar dərc edilmir və yığılmış qonorarlara çəkilən xərclərin faizi və s. göstərilmir. Şəffaflığın təmin edilmədiyi şəraitdə qanunla nəzərdə tutulmuş addımlar atılacaq.

Sözümün sonunu dövlət başçısı cənab İlham Əliyevin 15 oktyabr 2019-cu il tarixli iqtisadi müşavirədə söylədiyi fikirləri ilə bitirmək istəyirəm: **"Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Əlbəttə ki, bu məqsədə nail olmaq üçün korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalıdır... Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz".**

**– Ətraflı və məzmunlu müsahibə üçün təşəkkür edirik.**

**Müsahibəni apardı:**
**Müşfiq MİRZƏ,**
**"Respublika".**